# Cəmiyyətin müxtəlif təbəqələri ilə görüş və İmam Rzanın (ə) şəhadəti mərasimi - 24 /Aug/ 2025

İslam İnqilabının Ali Rəhbəri bu gün səhər mehriban imam həzrət Əli ibn Musa ər-Rzanın (ə) şəhadətinin ildönümünə həsr edilmiş mərasimdə cəmiyyətin müxtəlif təbəqələrindən olan minlərlə nümayəndəsi ilə görüşdə Əhli-beyt (ə) məktəbinin qeyri-adi şəkildə yayılması, Aşura məsələsi və İmam Hüseynin (ə) qiyamının fəlsəfəsinin İslam dünyasında yayılmasının sürətlənməsinin səkkizinci imamın Xorasana səfərinin ən mühüm bərəkətlərindən olduğunu dedi. O, günün aktual məsələlərinə dair mühüm məqamlara toxunaraq vurğuladı: "İranın düşmənləri xalqın, məsul şəxslərin və Silahlı Qüvvələrin güclü birliyindən və hərbi hücumlar zamanı yaşadıqları ağır məğlubiyyətdən İran xalqı və İslam dövlətinin müharibə yolu ilə diz çökdürülə, müti etdirilə bilməyəcəyini anlayıblar. Bu səbəbdən də indi bu məqsədi ölkədə ixtilaf və qarışıqlıq yaratmaqla həyata keçirməyə çalışırlar. Buna cavab olaraq bütün xalq, məsul şəxslər, söz və qələm sahibləri bütün varlıqları ilə xalqın müqəddəs və əzəmətli vəhdətinin poladdan olan sipərini qorumalı və gücləndirməlidirlər".

Həzrət Ayətullah Xamenei çıxışının ilk hissəsində qeyd etdi ki, səkkizinci imam bütün varlıq aləminin, xüsusilə də iranlıların sahib olduğu nemətlərin səbəbkarıdır. O, mehriban imamın şəhadəti münasibətilə başsağlığı dilədikdən sonra o böyük imamın Xorasana səfərinin əhəmiyyətli təsirlərindən danışdı: "Seyyidüş-şühədanın (ə) şəhadətindən sonra təcrid olunmuş və zülmə məruz qalmış Əhli-beyt (ə) məktəbi həmin səfər sayəsində guşənişinlikdən çıxdı, şiələr isə elə bir ruhiyyə qazandılar ki, bu ruhiyyə tarix boyu şiəliyi yaşatdı və Əhli-beyt (ə) məktəbinin davamçılarının sayını günbəgün artırdı".

O bildirdi ki, səkkizinci imamın Xorasana səfərinin ikinci mühüm nəticəsi Aşura məktəbinin yayılmasında sıçrayış yaranması oldu: "Həzrət Əli ibn Musa ər-Rza (ə) insanların qəlblərini Aşura qiyamına yönəltməklə onun fəlsəfəsini və məqsədlərini, yəni ədalətsizliyə qarşı mübarizə və İslam cəmiyyətində fasiq və günahkarların hakimiyyətinə dözüm göstərilməməsi məsələsini insanların düşüncələrinin mərkəzinə yerləşdirdi. Bununla da İslamın bir çox ictimai maariflərinin bəyan və təbliğinə zəmin yaratdı".

Həzrət Ayətullah Xamenei çıxışının ikinci hissəsində günün aktual məsələlərinə toxunaraq vurğuladı ki, ikinci məcburi müharibədə xalqın tam güc və qüdrətlə göstərdiyi müqavimət İran xalqının dünya ictimaiyyəti qarşısında xüsusi bir əzəmət və ikiqat izzət qazanmasına səbəb oldu. O, daha sonra belə bir mühüm sual səsləndirdi: "Son 45 il ərzində ABŞ-a rəhbərlik etmiş hökumətlərin, həqiqətən, İranla davamlı düşmənçilik etməsinin səbəbi nədir?"

O, üzdə sadə, əslində isə mürəkkəb olan bu suala cavab verərkən əlavə etdi: "Amerikalılar əvvəllər bu düşmənçiliyin həqiqi səbəbini terrorizm, insan haqları, demokratiya, qadın məsələsi və bu kimi başqa adlar altında gizlədirdilər. Ya da "İranın davranışını dəyişmək istəyirik" deyə daha "abırlı" şəkildə ifadə edirdilər. Amma bu gün ABŞ-da hakimiyyət başında olan şəxs bu düşmənçiliyin əsas səbəbini açıq şəkildə ifşa edərək dedi: "Biz istəyirik ki, İran bizim dediklərimizə qulaq assın". Yəni əslində, İran xalqı və İslam Respublikasının bizim əmrlərimizə tabe olmasını istəyirik".

İslam İnqilabının Rəhbəri amerikalıların bu pis niyyətli məqsədini dərindən anlamağın zəruriliyini vurğulayaraq dedi: "Onlar istəyirlər ki, İran bu böyük tarixi və xalq bütün bu izzət və qüruru ilə Amerikanın əmrlərinə tabe olsun".

O, ABŞ-nin qəzəbi və İranla düşmənçiliyinin səbəbini xalqın şüarlarında görənlərin səthi düşüncə sahibi olduqlarını dedi: " - Amerika ilə birbaşa danışıqlar aparıb problemi niyə həll etmirsiniz? – deyənlər də səthi düşünürlər. Çünki məsələnin mahiyyəti göründüyü kimi sadə deyil. ABŞ-nın İranla düşmənçiliyinin əsl məqsədi davam etdiyi müddətdə bu problemlər həll olunmayacaq".

Həzrət Ayətullah Xamenei ABŞ rəsmilərinin İran xalqını diz çökdürmək və itaətə məcbur etməklə bağlı səsləndirdikləri fikirlər və atdıqları addımların İran xalqına qarşı təhqir olduğunu dedi: "Xalq belə çirkin gözləntidən bərk narahatdır və bu istək qarşısında qüdrətlə dayanacaq".

O, son müharibənin əsl səbəbinin də məhz bu çirkin gözlənti və məqsəd olduğunu vurğuladı: "Onlar öz aləmlərində İslam Respublikasının işini bitirmək niyyəti ilə sionist rejimi təhrik edib, yardım göstərdilər. Belə ki, xalqın onlara qarşı çıxacağını və onları peşman edəcək bir yumruq vuracağını təsəvvür etmirdilər".

İnqilabın Rəhbəri müharibənin başlanmasından cəmi bir gün sonra ABŞ-nin Avropadakı muzdurlarından bir qrupunun toplanaraq "İslam Respublikasından sonrakı dövlətin təyin edilməsi" barəsində müzakirə apardıqlarına işarə edərək dedi: "Onlar xam xəyallara elə qapılmış və ucuz məqsədlərinə çatacaqlarına elə əmin olmuşdular ki, müharibə başlayandan cəmi bir gün sonra bir toplaşıb yeni hökuməti müəyyənləşdirmək üçün iclas keçirdilər, hətta şah da seçdilər".

Ayətullah Xamenei o axmaqların arasında bir iranlının da olduğuna işarə edərək dedi: "Kül o iranlının başına ki, öz ölkəsinin əleyhinə, yəhudilər, sionistlər və Amerikanın xeyrinə fəaliyyət göstərir".

İnqilabın Rəhbəri xalqla dövlət arasına ayrılıq salınması kimi xam xəyalın düşmənlərin və onların muzdurlarının başqa bir illüziyası olduğunu vurğuladı: "Amma xalq dövlətin, Silahlı Qüvvələrin və hökumətin yanında dayanaraq onların hamısının ağzına möhkəm bir yumruq vurdu".

O bildirdi ki, İran İslam Respublikasının Silahlı Qüvvələrinin güc nümayişi oyun qaydalarının dəyişməsinə səbəb oldu: "Biz və bütün İran xalqı bu işinə görə Silahlı Qüvvələrə təşəkkür edirik. Bundan sonra da İranın və onun Silahlı Qüvvələrinin gücü gündən-günə artacaq".

Həzrət Ayətullah Xamenei düşmənin son hadisələrdən çıxardığı nəticəyə aydınlıq gətirərək bildirdi ki, onlar İslam Respublikasını müharibə və hərbi hücumla diz çökdürə bilməyəcəklərini anladılar: "İran İslam Respublikası keçən 45 il ərzindəki bütün bu düşmənçiliklərə baxmayaraq, hər gün daha da güclənib. Düşmən də artıq anlayıb ki, İranı geri oturtmağın yolu sərt vasitələr deyil, daxildə ixtilaf və parçalanma yaratmaqdır".

Ayətullah Xamenei ölkənin müxtəlif yerlərindəki Amerika və sionizmə bağlı olan daxili ünsürləri, eləcə də qəflət yuxusunda yatmış söz və qələm sahiblərinin ölkə daxilində ixtilaf və fikir ayrılıqları yaradan amillər olduğunu bildirdi: “Bu gün, Allaha şükürlər olsun ki, xalq birdir. Siyasi və ictimai baxış fərqlərinin olmasına baxmayaraq, ölkəni və dövləti müdafiə etmək üçün düşmənə qarşı vahid şəkildə birləşmişdir. Bu birlik düşmənlərin təcavüzünə mane olur və elə buna görə də bu birliyi dağıtmağa çalışırlar".

İnqilabın Rəhbəri milli birliyin qorunmasının hamının vəzifəsi olduğunu dedi: “Bu müqəddəs vəhdət, xalqın ürəyi və iradəsinin böyük birliyi və polad sipəri zədələnməməlidir. Onu qorumaq söz və qələm sahiblərinin, tədqiqatçıların, tvit yazanların, xalqın və dövlət rəsmilərinin, xüsusilə də üç qüvvənin rəhbərlərinin vəzifəsidir. Çox şükür ki, üç qüvvənin rəhbərləri bu gün tam birlik və həmrəylik içində çalışırlar."

O, ölkəyə xidmət edənləri dəstəkləməyin zəruriliyini vurğuladı: "Xalq ölkəyə xidmət göstərənlərə, o cümlədən zəhmətkeş, çalışqan və məsuliyyətli prezidentə dəstək verməlidir. Çünki belə insanların qədrini bilmək lazımdır".

Həzrət Ayətullah Xamenei xalqın öz daxili birliyinin, xalqla dövlət, dövlətin məsul şəxsləri, habelə xalqla Silahlı Qüvvələr arasındakı birliyin qorunmasının qəti bir zərurət olduğunu dedi: "Əlamətlər və faktlar göstərir ki, bu gün düşmənin əsas səyləri məhz bu həmrəyliyi, həmfikirliyi və əməkdaşlığı zədələməyə yönəlib".

Ayətullah Xamenei vurğuladı ki, fərqli fikirlərin və baxışların olması təbii və qəbulediləndir: "Fikir sahibləri diqqətli olmalıdırlar. Çünki xalqın mövcudluğunu təkmilləşdirən yeni fikir təqdim etməklə müqaviməti dağıtmaq və

təhqir etmək fərqli məsələlərdir. Xalqın inkişafına, ölkənin yüksəlişinə və milli gücün artmasına səbəb olan İslam Respublikasının əsas prinsiplərini dağıtmaq olmaz. Bu, düşmənin istəyidir. Baxmayaraq ki, bu prinsipləri təkmilləşdirmək problem deyil".

İnqilab Rəhbəri qeyd etdi ki, sionist rejim xalqların nəzərində dünyanın ən mənfur rejimi və hökumətidir: "Bu gün, hətta sionist rejimə daim dəstək olmuş İngiltərə və Fransa kimi Qərb dövlətləri də onu qınayır. Təbii ki, bu qınaqlar təkcə dildədir və heç bir faydası yoxdur".

Ayətullah Xamenei sionist rejim rəhbərlərinin hal-hazırda uşaqların aclıq və susuzluq vasitəsilə qətlə yetirilməsi, yemək növbəsində güllələbaran edilməsi kimi cinayətlərinin bəşər tarixində misilsiz olduğunu dedi: "Bu iyrənc cinayətlər qarşısında dayanmaq lazımdır. Təkcə dildə müqavimət göstərməyin və qınamağın heç bir faydası yoxdur. Cəsur Yəmən xalqı kimi davranmaq, sionist rejimə yardım yollarını hər tərəfdən bağlamaq lazımdır".

Çıxışının sonunda İran İslam Respublikasının bu məsələdə mümkün olan hər cür dəstəyə hazır olduğunu bildirən Ayətullah Xamenei Uca Allahın İran xalqı və bütün dünya haqqsevərlərinin hərəkatına bərəkət verərək bu dərin və təhlükəli xərçəngin kökünü bölgədən tamamilə kəsəcəyinə, müsəlman xalqları oyadıb birləşdirəcəyinə ümidvar olduğunu dedi.

Mərasimin sonunda məclis iştirakçıları Əhli-beyt (ə) məddahları Həmid Dadvəndi və Məcid Bəni-Fatimə ilə birlikdə "Əminullah ziyarəti"ni və İmam Rzanın (ə) şəhadət ildönümünə həsr edilmiş növhələr oxudular.

**Materialdan istifadə edərkən WWW.LEADER.İR saytına istinad zəruridir**